Azərbaycan milli kitabxanası

# Kredo

MÜBARİZƏSİDİR! TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 28 (1158) 21 iyul 2023-cü il | Qiymәti 1 manat | Qәzet 1999-cu ilin oktyabrından çıxır

# 22 İYUL MİLLİ MƏTBUAT GÜNÜDÜR

## KİTABIN VƏ MƏTBUATIN AYRILMAYAN YOLU

### *Kitab çapı və mətbuatın problemləri haqqında düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar*
*və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

XIX əsrin II yarısından sonra Azərbaycanın iqtisadi həyatında mühüm dəyişikliklər və sürətli inkişaf mərhələsi başladı. Neft sənayesinin gətirdiyi qazanc insanların təkcə maddi rifahına yox, həm də mənəvi mühitinə ciddi təsir göstərdi. Ən başlıcası, Mirzə Fətəli Axundzadənin dövrün mənəvi mənzərəsini dəyişmək gücündə olan əsərləri yarandı. Görkəmli sənətkarın komediyası əsasında hazırlanan tamaşa teatrımızın bünövrəsini qoydu. Şübhəsiz, dövrün ən böyük hadisəsi Azərbaycanda milli mətbuatın da xalqın həyatına daxil olması idi. 1875-ci ilin iyul ayının 22-də Həsən bəy Zərdabinin fədakar çalışmaları, inadlı mübarizələri ilə "Əkinçi" qəzeti doğuldu.

Mən bu qeydlərimdə iki əsas məsələni diqqətə çatdırmaq istəyirəm. Əlbəttə, birinci elə mətbuatla bağlı düşüncələrimi oxucularla bölüşmək fikrindəyəm. Onu qeyd edim ki, indi mətbuat deyəndə daha çox jurnalistlər, müxbirlər və hazır qəzet məhsulu başa düşülür. Amma yaddan çıxarmaq olmaz ki, hər hansı bir mətbu nəşrin araya ərsəyə gəlməsində mətbəə işçilərinin, poliqrafçıların xidməti əvəzsizdir. Birmənalı qeyd etmək lazımdır ki, mətbəə işçiləri, poliqrafçılar bir növ jurnalistlərin işini tamamlayır; onların yazdıqlarının reallaşması üçün mühüm və əvəzsiz fəaliyyət göstərirlər. Təəssüflə qeyd etmək lazımdır ki, bir çox hallarda fədakar mətbəə işçilərinin, poliqrafçıların fəaliyyəti bir çox hallarda kölgədə qalır. Mən son illərdəki müşahidələrimin əsasında fikrimi aydınlaşdırmaq istərdim. Mətbuat Şurası adlanan qurum yaradılıb. Zənnimcə, bu qurumun özü də mətbuatın inkişafında müsbət rola malikdir. Ayrı-ayrı vaxtlarda demokratiyanın inkişafına təkan verən problemlərin müzakirəsində təcrübəli jurnalistlər, söz-fikir adamları bir araya gəlir. Problem məsələlər müzakirə olunur, fəaliyyət istiqamətləri müəyyənləşir. Ancaq belə müzakirələrə təcrübəli mətbəə işçiləri dəvət olunmurlar. Savadlı, kifayət qədər təhsilə malik mətbəə mütəxəssisləri elə səmərələşdirici təkliflər verə bilərlər ki, nəticədə qəzetlər daha asan, daha ucuz başa gələr, başqa sözlə, jurnalistlərin əməyi yüngülləşər. Onların sözü cəmiyyətə vaxtında və keyfiyyətlə çatdırılar. Bir anlığa düşünək ki, Həsən bəy Zərdabi mətbəə olmadan qəzet buraxmaq istəyir. Bu necə mümkün ola bilərdi? Doğrudur, Zərdabi nadir şəxsiyyət idi, fədakarlığına görə də onunla kimsə müqayisə oluna bilməzdi. Çünki bir çox hallarda, o nəinki qəzeti yazır, müxbirlərinin fəaliyyətini tənzimləyir, eyni zamanda elə qara fəhlə işi olan mətbəə fəaliyyəti də göstərirdi. Deyilənə görə, hətta elə günlər olub ki, Həsən bəy Zərdabi şriftləri özü yığmalı olub, başlıqların tərtibatına yığdığı şriftlərlə forma verib. Əgər belə demək mümkünsə, bu, mətbəə işi ilə jurnalistlərin fəaliyyətinin ayrılmazlığının ən yaxşı nümunəsidir.



Son vaxtlar televiziyada həm mətbuat tarixi ilə bağlı, həm də Azərbaycanın mənəvi inkişafının xronikasını göstərən verilişlərlə rastlaşırıq. Belə bir veriliş Balaxanı haqqında oldu və mən də həmin verilişə çox diqqətlə baxdım. Vaxtı ilə Balaxanıda ağır şəraitdə çalışan fəhlələr arasında maarifi yayan, savad kurslarında çalışan ziyalıların adları çəkilirdi. Əlbəttə, arxiv materialları əsasında mühüm sənədlər göstərilir, tarixi şəxsiyyətlərin fəaliyyətindən geniş və əhatəli bəhs olunurdu. Amma verilişin sonunda bir çox şəkillər də göstərildi ki, bu şəkillərdə də fəhlələr arasında olan ziyalılar diqqəti cəlb edirdi, ancaq onların adları göstərilmirdi. Çox güman ki, verilişi hazırlayanlar aradıqları mənbələrdə faktları dəqiqləşdirmək imkanından məhrum olublar. Bu verilişlərin mühüm cəhətlərindən biri də xronikanın XX əsrin axırlarına qədər davamlı göstərilməsi idi. Mən çox diqqətlə izləyirdim, düşünürdüm ki, Balaxanıdan olan görkəmli mətbuat xadimi İsrafil Nəzərovun haqqında da geniş və əhatəli söhbət açılacaq. Axı o, əslən Balaxanılı idi. Həyatının sonuna qədər də doğulub böyüdüyü mühiti unutmamışdı. Yeri gəldikcə, Balaxanı ilə bağlı maraqlı tarixi hadisələri tədbirlərdə, yığıncaqlarda danışardı. Nəysə, bu sıradan amma vacib olan bir fakt onu göstərir ki, haqqı olan insanları unutmaq məsələyə dərindən yanaşa bilən izləyicidə çox bədbin hisslər oyadır. Çünki hər kəs nə qədər fədakarlıq göstərirsə-göstərsin, unudulacağı faktı ilə qarşılaşır. Mən çox istərdim ki, mətbuatla bağlı geniş ictimai tədbirlər təkcə Mətbuat Şurasının fəaliyyəti ilə məhdudlaşmasın. Televiziyada, radioda silsilə verilişlər olsun. Əgər belə verilişlər olsa, onda Həsən bəy Zərdabidən üzü bəri gələn yolun kimlərdən keçdiyini daha aydın təsəvvür etmək olar. Əlimərdan bəy Topçubaşovun, Həsən bəy Ağayevin, Əhməd Ağaoğlunun, Nəriman Nərimanovun, Məhəmməd Əmin Rəsulzadənin siyasi fəaliyyətlərini bir tərəfə qoyaraq onların mətbuatla bağlı fədakar mübarizələrini işıqlandıran verilişlər mətbuat tariximizin ən dəyərli səhifələrini gənc nəslə daha yaxından tanıdardı.

*(Davamı 3-cü səhifədə)*

# KİTABIN VƏ MƏTBUATIN AYRILMAYAN YOLU

## Kitab çapı və mətbuatın problemləri haqqında



*(Əvvəli 1-ci səhifədə)*

Mənim özümün şəxsən tanıdığım görkəmli mətbuat xadimləri, mətbəə işinin biliciləri olan ziyalıların adlarını xatırlamaq kifayət edər ki, gənc nəsil bu sahənin necə görkəmli şəxsiyyətləri olduğunu yaxından tanısın. İsrafil Nəzərovun, Əjdər Xanbabayevin, Nəsir İmanquluyevin, Nazim Əhmədovun, Yura Talıbovun, Musa Nəbiyevin, Elman Kərimovun adları ilə bağlı silsilə verilişlər, zənnimcə, çox maraqla qarşılanardı. Onların fəaliyyət sahəsi ilə bağlı elə dəyərli məlumatlar, faktlar var ki, bunlar həm mətbəə işimizin, həm də jurnalistikanın tarixində müstəsna əhəmiyyət kəsb edib. Belə simaların fəaliyyəti yaxından öyrənilərsə, gənc nəsil də hansı özül üzərində boy atdığını, böyüdüyünü daha aydın




dərk edər. Daha onu demirəm ki, bu adları unutmaq mətbuat tariximizin inkişaf yolu üzərinə kölgə salmaq demək olardı.

Dövlətimiz mətubatın inkişafına xüsusi diqqət göstərir. Xüsusilə ulu öndərin zamanında bünövrəsi qoyulmuş ən yaxşı ənənələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də diqqətli və uzaqgörən fəaliyyəti ilə davam etdirilir. Vaxtı ilə ulu öndər Azərbaycan Milli Mətbuatının 120 illiyi münasibəti ilə jurnalistlərə, nəşriyyat poliqrafiya işçilərinə birgə ünvanlanan təbrik məktubunda yazırdı: "Əsası 120 il bundan öncə böyük alim, pedaqoq, jurnalist, ictimai xadim Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə qoyulmuş milli mətbuatımız Azərbaycan xalqının mənəvi mədəniyyəti tarixinə şərəfli səhifələr yazmış, milli mənliyimizin formalaşmasında, mənəvi dəyərlərin qorunub-saxlanmasında misilsiz rol oynamışdır. Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir. "Əkinçi"dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini biz milli mətbuatımızın səhifələrindən öyrənmişik". Göründüyü kimi, ulu öndər nəşriyyat-poliqrafiya işçilərinin fəaliyyətini jurnalistlərin fəaliyyətindən ayırmırdı. Sonralar mətbuatın inkişafına dəstək fondu yaradıldı. Həmin fondun nizamnaməsinə əsasən mətbəələr dövlət dəstəyindən faydalana bilmədi. Bu, zənnimcə, çox ciddi bir səhvdir. Mətbəələrə də həmin dövlət dəstəyindən kömək, yardım ayrılması çox ədalətli olardı. Məlumdur ki, müxtəlif səbəblərdən qəzetlərin nəşriyyata borcu yaranır. Vaxtı ilə ulu öndər həmin borcları ləğv etdi. Bu, qəzet redaktorlarının heç vaxt yadından çıxmayacaq tarixi hadisə idi. Zənnimcə, lap 10 ildən bir olsa da, belə humanist addımlar atmaq çox faydalı olardı.

Bir sözlə, yüksək təcrübəyə, poliqrafik bilgiyə malik olan mütəxəssislər - mətbəə mütəxəssisləri də mətbuat şurasının fəaliyyətinə cəlb olunmalıdır.

Bir neçə kəlmə də kitabların nəşri, poliqrafiya vəziyyəti, konkret olaraq tirajları haqqında da danışmaq istərdim. Axı kitab nəşri işi lap əzəldən elə mətbuat işi ilə paralel formalaşıb. Demək olar ki, sıx əlaqədə inkişaf edib. Kitab da, qəzet də son nəticədə mətbəədə realizə olunur, işıqlığa çıxır. Düşünürəm ki, respublikada poliqrafiya sənayesinin vəziyyətinə dövlət səviyyəsində yenidən baxılmalıdır.

Bəs problem nədədir ki, kitab işi ikinci dərəcəli bir fəaliyyət sahəsinə çevrilib. Ən başlıcası, kitabların əşrində tiraj problemi yaranıb. Ən dəyərli kitab belə yüksək tirajla nəşr oluna bilmir. Çünki oxucu marağından kənardadır. Təkcə bədii ədəbiyyatdan, bestsellerdən, sentimental ruhlu əsərlərdən, yaxud kriminal hadisələrdən bəhs edən detektivlərdən söhbət getmir. Axı elə istedadlı publisistlərimiz var ki, onların yazdıqları cəmiyyətin mənəvi inkişafına daha güclü təkan verər. Təəssüf ki, belə kitabların təbliği olmadığından son nəticədə oxucuya da çatmır.

Zənnimcə, Azərbaycanın iri şəhərlərində poliqrafiyamız üçün vacib olan vasitələrin, keyfiyyətli kağızın, mətbəə maşın və avadanlıqlarının istehsalına, özü də dünya standartlarına uyğun səviyyədə istehsalın təşkilinə başlamağın vaxtıdır. Bunun üçün Şuşada, Sumqayıtda, Gəncədə və əlbəttə ki, paytaxtımız Bakıda sənaye müəssisələri açmaq və bunların fəaliyyətini əlaqələndirən qurumlar yaratmaq lazımdır. 44 günlük müharibəni ordumuz zəfərlə başa çatdırdı. Həmin günlərdə müzəffər Ali Baş Komadan həm ordunun hərbi hərəkətinə rəhbərlik edirdi, həm də paralel olaraq dünyanın aparıcı mətbuat orqanlarının ən tanınmış jurnalistləri ilə müsahibələrdə Azərbaycan həqiqətlərini əsaslandırılmış şəkildə dünyaya çatdırırdı. Mən dəfələrlə demişəm, Prezidentin həmin günlərdəki müsahibələri dərs vəsaiti şəklində kütləvi tirajla çap olunmalıdır. Əlinə qələm götürüb jurnalist olmaq istəyən, tarixi tədqiqat aparan, pedaqoji fəaliyyət göstərən hər bir şəxs o müsahibələrin hansı psixoloji dərinliklərdən keçdiyini birər-birər öyrənməlidir.




Məlumdur ki, erməni vandalları Azərbaycanın bir çox şəhərlərini yer üzündən silib. Ağdam yoxdur, Füzuli yoxdur, Cəbrayıl yoxdur, eləcə də digər ərazilərin bütün ictimai fəaliyyət məkanları dağıdılıb. Biz işğaldan azad olunmuş ərazilərdə də yeni mətbuat mərkəzlərinin yaradılmasına çalışmalıyıq. Həmin ərazilərdə yeni standartlara uyğun mətbəə və poliqrafiya müəssisələri inşa olunmalıdır. Kitab çapı işi qaydaya düşməlidir. Ən başlıcası, həmin ərazilərin sosial iqtisadi, mənəvi problemlərinin həllində yaxından iştirak edən mətbuat orqanları yaradılmalı, qəzetlər fəaliyyətə başlamalıdır.

Mən məmnuniyyətlə Şuşada, Ağdamda, Cəbrayılda yaradılacaq mətbuat-poliqrafiya mərkəzlərinin fəaliyyəti üçün məsləhətlərimi əsirgəməzdim. Bir daha kitab məsələsinə qayıdıram. Açığı, kitab nəşri işinin tənzimlənməsi sanki başlı-başına buraxılıb. Əvvəllər dövlət nəzarətində olan kitab kollektoru fəaliyyət göstərirdi. Müəlliflər həmin qurumla yaxından təmasda olurdu. Nəşr olunan kitabları həmin qurum ayrı-ayrı bölgələrin kitabxanalarına göndərirdi.

Onu da deyim ki, Azərbaycanda nəşr olunan qəzet və kitabları nizamlı şəkildə, aydın fəaliyyət istiqaməti ilə dünyanın müxtəlif ölkələrinə göndərsək, bu ümumi işimizin xeyrinə olardı. Avropanın müxtəlif ölkələrində Azərbaycan evləri fəaliyyət göstərir. Həmin mərkəzlərə Azərbaycanda nəşr olunan qəzet və kitabları göndərmək ölkəmizin həqiqətlərini dünyaya çatdırmaq deməkdir. Açığı, kitab nəşri işinin yaxşılaşdırılması üçün bir çox texniki şərtlər var ki, onları diqqətdən qaçırmaq olmaz. Çap məhsullarının keyfiyyətini yoxlayan laboratoriyalar yoxdu. Halbuki, kağızın, boyanın çap formalarının keyfiyyətini yoxlamaq belə laboratoriyalarsız mümkün deyil.

Sözümün sonundabir daha Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çox vacib qənaətinə diqqəti yönəltmək istərdim: "Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".Prezident keçilmiş yolun dəyərini dəqiq və aydın göstərir. Bircə onu qeyd edirəm ki, keçilmiş yol həm də gələcəyin üfüqlərinə gedən yolu da göstərir. Hər birimiz mətbuatın və həm də mətbəələrin fəaliyyəti üçün imkanlarımızı əsirgəməməliyik.

Mətbuat cəmiyyət üçün sağlam hava təminatıdır. Mənəvi mühitin tənzimləməsi missiyasını daşıyan mətbuatın yolu isə mətbəələrdən keçir.

*16.03.2023*